## TƏSVİRİ SƏNƏT

**UOT 75.**

**Sevinc Əliyeva Ərşad qızı**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**magistrant**
**E-mail: aliyeeva00@gmail.com**

# SƏTTAR FIRÇASI İLƏ QARABAĞ MƏNZƏRƏLƏRİ

**Xülasə:** Vətənimizin gözəlliyi, füsunkar təbiəti hər zaman şairlərin, yazıçıların, rəssamların ilham mənbəyi olmuşdur. Azərbaycanın təbiəti, mənzərələrindən danışan zaman yadımıza ilk növbədə Səttar Bəhlulzadə düşür. O, Azərbaycan təbiətini, aşıb-daşan çaylarını, dərələrini, güllü-çiçəkli dağlarını kətan üzərində özünəməxsus şəkildə həkk edirdi. Təbiətin vurğunu olan Səttar Bəhlulzadə hər hansısa bir mənzərənin üzərində işləməmişdən qabaq saatlarla o mənzərəni izləyər, sanki hər bir detalı yaddaşına həkk edərdi.

**Açar sözlər:** Səttar Bəhlulzadə, Qarabağ, mənzərə, kolorit, kompozisiya

**Giriş**. Səttar Bəhlulzadə 15 dekabr 1909-cu ildə Bakının Əmircan kəndində dünyaya göz açmışdır. Atası Bəhlul kişi elə həmin ildə dünyasını dəyişən oğlunun adını ona verir. Rəngləri çox sevən azyaşlı Səttar, anası Hökümə xanım xalça toxuyan zaman gəlib onu izləyərdi. Hələ uşaqlıq yaşlarından incəsənətə olan bu maraq Səttar Bəhlulzadəni Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda təhsil almasına gətirib çıxardı. Səttarın istedadı Əzim Əzimzadənin gözündən qaçmamışdır. Və Əzim Əzimzadə bu istedadlı tələbəni baş rəssam olduğu “Kommunist” qəzetində işləməyə dəvət edir. Səttar Bəhlulzadə bu qəzetdə işləyən vaxtlar qarfika sahəsində çalışırdı. Onun karikaturaları müxtəlif mövzuları əhatə edirdi. Belə karikaturalara misal olaraq, məsuliyyətsiz həkimlər, tənbəl pambıqçılar, səhlənkar məmurlar və başqalarını göstərmək olar. Qrafika sahəsinin görkəmli nümayəndəsi olan Əzim Əzimzadə gənc sənətkarı özünün davamçısı kimi görür və təhsilini davam etdirməsini istəyirdi. Böyük sənətkarımız Əzim Əzimzadənin məsləhəti ilə o, 1933-cü ildə Moskvaya Surikov adına Rəssamlıq Akademiyasının qrafika şöbəsinə daxil olur. Səttar Bəhlulzadə Moskvada da müəllimlərin diqqətini öz üzərinə çəkməyi bacarır. Ancaq daha sonra təhsilini qrafika sahəsində deyil, rəngkarlıq sahəsində davam etdirir. Diplom müdafiəsi mövzusu olaraq isə “Babək üsyanı" və “Bəzz qalası” adlı iki əsər işləyir. Ancaq 1939-cu ildə baş verən II Dünya Müharibəsi səbəbindən Moskvaya qayıda bilmir. Müharibə bitdikdən sonra isə ətrafındakı insanlar ona Moskvaya qayıdaraq diplomu müdafiə etməsini təklif etsələr də rəssam bundan imtina edir. Və “Məgər diplomsuz rəssam olmur?” deyərdi.

Özünü sənətə həsr etmiş dahi sənətkar Səttar Bəhlulzadə yaradıcılığının erkən dövrlərində tarixi janrda əsərlər yaratsa da, daha sonra mənzərə janrına müraciət edir. Və sanki rəssam bu janrda özünü tapmışdır. Səttar Bəhlulzadənin rəngkarlıq sahəsi ilə yanaşı, ədəbiyyata da çox böyük marağı olmuşdur. O, Məhəmməd

Füzuli yaradıcılığının vurğunu idi. Və rəssamın öz dilindən deyilmişdi: "Mənim bir rəssam kimi yetişməyimdə üç müdrik sənətin rolu olub. Bunlar xalça, miniatür sənətimiz və Füzulinin poeziyasıdır". Onun yaradıcılığının erkən mərhələlərində mənzərələri daha realistdir. Sonrakı illərdə isə daha ümumiləşdirilmiş kompozisiyalar yaratmışdır. O, təbiəti dərk etdiyi, qavradığı kimi təsvir edirdi. Səttar Bəhlulzadəyə qədər mənzərə janrında işləyən bir çox rəssamlar olmuşdur. Ancaq o, mənzərə janrına yenilik olaraq "fəlsəfi mənzərəni" gətirmişdir. Yəni biz Səttar Bəhlulzadənin əsərlərinə tamaşa edərkən təbiətin gözəlliyindən yalnız zövq almırıq, eyni zamanda da düşünürük.

Səttar Bəhlulzadə yaradıcılığı boyu Azərbaycan torpağını qarış-qarış gəzərdi. O, doğma torpağının təbiətinə bələd idi. Rəssam səfərləri zamanı etüd çantasını da özü ilə götürər, gördüklərini albomunda təsvir edib materiallar toplayardı. Bu kiçik həcmli etüdlər, eskizlər gələcəkdə nəhəng tabloların təməlini qoyardı. Səttar Bəhlulzadəni sübh tezdən axşamçağına kimi təbiətin qoynunda görmək mümkün idi. Qəlbən Azərbaycan torpaqlarına bağlı olan dahi sənətkarımız baharda, yayda, bəzən də payızda hava şəraitindən asılı olmayaraq fasiləsiz çalışır, vətənimizin torpaqlarının təsvirini yaradırdı. Belə səfərləri sırasında Azərbaycanın dilbər guşəsi olan Qarabağ mühüm yer tutur. Rəssam xüsusən də Şuşanı çox sevərdi. O, bu torpağa ilk addım basdığı zaman sanki buranın mənzərəsinə aşiq olur. 1955-1957-ci illərdə Qarabağın əzəmətli dağlarını, əlvan təbiətini tablolarında canlandırıb. Belə əsərlərinə misal olaraq "Yuxarı Daşaltı" (1957), "Cıdır düzü" (1956) "Şuşa ətrafında" (1957), "Dumana bürünmüş dağlar" (1957), "Dağlarda yol" (1956), "Çaxmaq meşəsi" (1956), "Bahar nəğməsi" (1956), "Qarabağ mənzərəsi" (1957), "Şuşa. Ağaclar" (1956), "Şuşa. Dağlar" (1960) və başqa əsərlərinin adlarını qeyd etmək olar. Rəssamın bu dövr mənzərələrinə nəzər yetirsək, tabloların daha realistik tərzdə işləndiyini görə bilərik.

Rəssamın Qarabağın gözəlliklərini əks etdirən əsərləri içərisində 1957-ci ildə işlənilmiş "Yuxarı Daşaltı" əsərini göstərmək olar. Əsər Azərbaycan Milli İncəsənət Muzeyində saxlanılır. Tabloda biz uca dağları, təmiz havası, şəfalı bulaqları olan Qarabağın tacı, dilbər guşəsi Şuşa ərazisini görürük. Əsərə baxdıqca insanda xoş ovqat, poetik əhval-ruhiyyə yaranır. Başı qarlı uca dağlar səmaya doğru yüksəlir, sanki səmada itib-batır. Biz bu əsərdə müxtəlif rəng çalarlarından istifadə edildiyini görürük. Bu rəng çalarlarının bir-birini tamamlaması, onların arasındakı keçid Səttar fırçasının qüdrətindən xəbər verir.



***Səttar Bəhlulzadə. "Yuxarı Daşaltı", kətan, yağlı boya, 1957***

Səttar Bəhlulzadənin yaradıcılığı boyu eyni yeri dəfələrlə təsvir etməsinin şahidi oluruq. Rəssam eyni məkanı günün müxtəlif vaxtlarında, ilin müxtəlif fəsillərində, müxtəlif rakurslardan istifadə edərək kompozisiyalar yaradırdı. Biz bu xüsusiyyətlərə imperssionizm cərəyanının nümayəndələrində də rast gəlirik. Bu da Səttar Bəhlulzadənin bu cərəyana olan marağından xəbər verir. Ancaq onun tablolarında milli ab-hava, milli ruh, özünəməxsus rəng çalarları daim özünü büruzə vermişdir.

Şuşanın dillər əzbəri olan Cıdır düzü ilə bağlı yaratdığı əsərləri sırasında 1956-cı ilə aid olan "Cıdır düzü" tablosunu göstərmək olar. Əsər Üzeyir Hacıbəyovun ev-muzeyində qorunub saxlanılır. Rəssam Cıdır düzünün əzəmətli dağlarını, al-əlvan təbiətini öz fırçası ilə əbədiləşdirmişdir. Əsərdə biz gümüşü-göy rəngin ahəngində təsvir olunmuş dağların, yaşıl çəmənliklərin, qızılı-narıncı tonlarda təsvir olunmuş təbiətin gözəlliyini görürük. Tablo zəngin koloriti ilə seçilir. Cıdır düzü adicə düzəngah deyil. Qarabağ xanı Pənahəli xanın dövründən Qala camaatı burada "Yallı" gedib, ən xoş günlərini keçiriblər. Qarabağın igidləri burada at oynadıblar, üzüyün halqasından ox keçiriblər. Ona görə də Cıdır düzü Qala camaatı üçün müqəddəs yer olub. Azərbaycanın dahi sənətkarı Səttar Bəhlulzadə də Qarabağın müqəddəs torpağını, musiqi və incəsənət beşiyi Şuşanı özünəməxsus şəkildə təsvir etmişdir. Və bu tablo rəssamın Qarabağ mövzusunda yaratdığı əsərləri içərisində şah əsəri hesab olunur.



***Səttar Bəhlulzadə. "Cıdır düzü". 1956***

Sanki öz rəngləri ilə dil açıb danışan növbəti əsəri isə 1960-cı ildə çəkdiyi "Şuşa. Dağlar" əsəridir. Əsərə tamaşa etdikdə, qızıl payızın tonlarını müşahidə edirik. Rəssam bu əsərdə də müxtəlif rəng tonlarından, eyni rəngin müxtəlif çalarlarından istifadə edərək, Şuşa dağlarının əzəmətini təsvir etmişdir.



***Səttar Bəhlulzadə. "Şuşa. Dağlar", karton, yağlı boya, 1960-cı illər***

Heyrətamiz baxış nöqtəsi ilə seçilən növbəti əsəri isə 1957-ci ildə çəkilmiş "Qarabağ mənzərəsi" əsəridir. Rəssam bu tabloda da doğma təbiətinin əsrarəngiz gözəlliyini canlandırmışdır. Əsərə tamaşa etdikdə biz, hündür rakursdan təsvir olunmuş Qarabağın füsunkar təbiətini görürük. Mavi səma fonunda, tünd yaşıl təbiət mənzərəsindən açılan başı dümağ qarlı dağın təsviri diqqətimizi cəlb edir. Koloritinin zənginliyi ilə seçilən bu tablo şəxsi kolleksiyada saxlanılır.

Rəssamın Şuşa gözəlliyini əks etdirən növbəti əsərləri sırasında "Şuşa ətrafında" adlı əsərini qeyd edə bilərik. Tablo 1957-ci ildə işlənilib və şəxsi kolleksiyada qorunub saxlanılır. Səttar Bəhlulzadə bu tabloda müxtəlif rəngli yaxmalardan istifadə edərək Şuşanın əsrarəngiz mənzərəsinin təsvirini yaratmışdır.

Öz koloritinin zənginliyi ilə seçilən tabloda rənglərin arasındakı keçid rəssam tərəfindən mükəmməl şəkildə işlənilmişdir. Şuşanın təbiətinə vurğun olan sənətkarın 1956-cı ildə yaratdığı belə əsərlərindən biri də "Şuşa. Ağaclar" adlı tablosudur. Tabloda biz yaşıl rəngin müxtəlif çalarlarından istifadəni görürük. Çəmənliklərin arasında baş qaldırmış çiçəklər, ağaclar bir zamanlar düşmən tapdağı altında olan qədim Şuşa təbiətinin rəngarəngliyini əks etdirir. Əsərə tamaşa etdikdə insanda xoş ab-hava, poetik əhval-ruhiyyə yaranır.

Rənglərinin al-əlvanlığı ilə seçilən növbəti məşhur əsəri "Qarabağda yay" adlı əsəridir. Gül-çiçəkli düzənliklər, uzaqlarda görünən gümüşü dağlar Qarabağ təbiətinin gözəlliyindən xəbər verir. Səttar Bəhlulzadə sözün əsl mənasında Azərbaycanı bizə yenidən tanıtdırırdı. Rəssamın bioqrafı və tədqiqatçısı sənətşünas Ziyadxan Əliyevin "Sənətin Məcnunu" kitabına istinadən deyə bilərik ki, doğma torpağına, vətəninə olan bu sevgi sənətə də, sənətkara da ölməzlik gətirirdi.



***Səttar Bəhlulzadə. "Qarabağda yay", karton, yağlı boya, 1960-ci illər***

Səttar Bəhlulzadənin əsərlərində hər bir rəngin öz mənası vardır. Onun tabloları rəng palitrasının zənginliyi, koloritinin gözəlliyi ilə seçilir. Vətən sevgisi, torpağına, tarixinə maraq rəssamın yaradıcılığı boyu sezilir. Görkəmli Azərbaycan rəssamı Səttar Bəhlulzadə haqqında belə bir fakt da vardır ki, əsərlərini öz dostlarına, tanışlarına, sevdiklərinə təmənnasız bağışlayarmış. Rəsmi dövlət muzeylərində 200-ə qədər rəngkarlıq və qrafika əsərləri olsa da, yaradıcılığı boyu rəssam minlərlə əsərin müəllifi olmuşdur. Elə bu səbəbdən də Səttar Bəhlulzadənin əsərlərinin bir araya gətirilməsi çətindir. Çünki əsərlərinin çoxu şəxsi kolleksiyalardadır. Buna görə də rəssamın Qarabağa aid neçə əsər üzərində işlədiyi dəqiq məlum deyil. Azərbaycan təbiətinin vurğunu olan dahi sənətkar həyatı boyu hər bir guşəni gəzib saatlarla təbiəti seyr edərdi. Qarabağ, Şuşa da rəssamın çox sevdiyi və gəzməyə üstünlük verdiyi ərazilərdəndir. Azərbaycan təbiəti, Azərbaycan mənzərəsi dedikdə də, ağıla ilk gələn sənətkarımız məhz Səttar Bəhlulzadədir. Hələ sağlığı dövründə onun sirli dünyası şairlərin, yazıçıların ilham mənbəyi olmuşdur. Səttar Bəhlulzadənin əsərləri nəinki Azərbaycanda, həmçinin dünyanın bir çox ölkələrində dəfələrlə nümayiş etdirilmişdir.

1971-cü ildə Moskvada dünyasını dəyişən rəssam Bakıya gətirilərək öz vəsiyyətinə uyğun olaraq Əmircan kəndində dəfn olunmuşdur. Xoşbəxt xalqıq ki, Səttar kimi vətənini sevən, vətəninə ürəkdən bağlı olan, xalqı üçün yaşayıb-yaratmış ustadlarımız var.



***Səttar Bəhlulzadə. "Qarabağ mənzərəsi" 1957-ci il***

**Ədəbiyyat siyahısı:**

1. Ziyatxan Əliyev - "Sənətin Məcnunu". Bakı, 2009.
2. Səttar Bəhlulzadə - Rəngkarlıq və qrafika, "Xalq əmanəti" layihəsi – Bakı: Xalq Bank, 2012.
3. Ziyadxan Əliyev - Naməlum Səttar. 2009.
4. https://www.anl.az/down/meqale/turkustan/2019/dekabr/691278.htm
5.https://www.anl.az/down/meqale/525/2020/sentyabr/715548.htm

**Севиндж Алиева Аршад**

## ПЕЙЗАЖИ КАРАБАХА КИСТИ САТТАРА

**Резюме: :** Саттар Бахлулзаде, народный художник республики, является одним из выдающихся мастеров азербайджанского изобразительного искусства. Жанр пейзажа занимал важное место в творчестве художника. В статье представлена полная классификация пейзажной живописи нашего очаровательного уголка Карабаха. Здесь рассматриваются композиция, колорит и другие художественные особенности пейзажей художника.

**Ключевые слова:** Саттар Бахлулзаде, Карабах, пейзаж, цвет, композиция.

**Sevinj Aliyeva Arshad**

## KARABAKH KARABAKH LANDSCAPES BY SATTAR

**Summary:** Sattar Bahlulzadeh, the People's Artist of the Republic, is one of the prominent masters of Azerbaijani fine art. The landscape genre occupied an important place in the artist's work. It can be said that in the article, a complete classification of the landscape painting of our charming corner of Karabakh is presented. The composition, color and other artistic features of the artist's landscapes are reviewed here.

**Key words:** Sattar Bahlulzadeh, Karabakh, landscape, color, composition.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11.06.2024**